AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ MALİYYƏLƏŞMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5301.01 - Daxili fiskal siyasət və dövlət maliyyəsi

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Əli Nazim oğlu Həsənov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və audit" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru
Əvəz Əkbər oğlu Ələkbərov

Rəsmi opponentlər: iqtisad elmləri doktoru
Saleh Məmmədəli oğlu Məmmədov

iqtisad elmləri namizədi, dosent
Azim Heydər oğlu Abasov

iqtisad üzrə fəlsəfə doktoru
Jalə Məmmədəli qızı Əfəndiyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
iqtisad elmləri doktoru, professor
Yaşar Atakişi oğlu Kəlbiyev
(imza)

Dissertasiya şurasının elmi katibi:
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Suqra İnqilab qızı Hümbətova
(imza)

Elmi seminarın sədri:
iqtisad elmləri doktoru, professor
Nizami Nəcəfqulu oğlu Xudiyev
(imza)

DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Kiçik və orta bizneslər, o cümlədən innovativ həllərə əsaslanan startaplar ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda Azərbaycanda da KOB-ların inkişafı istiqamətində addımlar atılmaqdadır. Ölkə başçısının 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"*nda startaplara və digər KOB-lara dəstək mexanizmləri və onların sayının artırılmasının zəruriliyi vurğulanmışdır. Həm dünyanın qabaqcıl ölkələrinin təcrübəsi, həm də bu sahədə Azərbaycanın mövcud inkişaf potensialı sahibkarlığa dövlət dəstəyi və yeni maliyyələşmə imkanları ilə bağlı elmi araşdırmanı aktual və vacib edir. Həmçinin, Azərbaycanla bağlı mövcud vəziyyəti dərindən təhlil edən elmi araşdırmalar azlıq təşkil edir. Buna görə də yeni tədqiqat üçün zərurət yaranır. Dissertasiyada Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün yeni maliyyələşmə mənbələrinin təşkili, bu bizneslərə uğurlu dövlət dəstəyinin təmin edilməsi, onlar vasitəsilə ölkə iqtisadiyyatının inkişafı kimi aktual məsələlərə toxunulur.

Kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı, həmçinin yeni maliyyələşmə mexanizmləri barədə ayrı-ayrılıqda yerli və xarici alimlər tərəfindən müxtəlif tədqiqatlar aparılmışdır. Son dövrlərdə KOB-ların inkişaf yolları və alternativ maliyyələşmə mexanizmləri Ə.Ə.Ələkbərov, X.Ş.Alıyev, R.R.İsrafilov, Ə.Y.Abbasov, T.Əlizadə, V.Ə.Qasımlı və digər alimlər tərəfindən tədqiq edilmişdir. Lakin bu araşdırmalar əsasən KOB-ların inkişafı, onların iqtisadi inkişafa təsiri, maliyyələşmə mexanizmlərinin ayrı-ayrı aspektləri üzrə həyata keçirilmişdir. Halbuki, biznes subyektlərinin, xüsusən də innovativ bizneslərin müasir maliyyələşmə mexanizmləri ilə bağlı sistematik araşdırma aparılmamış və əlavə elmi tədqiqata ehtiyac yaranmışdır.

Startap və KOB-ların maliyyələşmə məsələləri ilə bağlı xarici alimlərdən J.E.Stiglitz, A.N.Berger, G.F.Udell, D. Senor, S. Singer və Y. Zhang tərəfindən aparılan tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. Son dövrlərdə iqtisadi institutların təsirlərinin tədqiqi ilə bağlı D.Acemoğlu və J.A.Robinson, KOB-ların inkişafında dövlət-ordu

modeli ilə bağlı C.D. Freilich, blokçeyn texnologiyasının biznes maliyyələşməsinə göstərdiyi təsirlə bağlı R. Wang, KOB və startapların maliyyələşdirilməsi üçün dövlətin maliyyə dəstəyi ilə bağlı S.Y.Lee və C.M.Lee, dövlətin elmi tədqiqat sahəsinə etdiyi investisiyalarla biznеslərə edilən güzəştlər arasındakı əlaqə ilə bağlı K. Chang, C. Xue, H. Zhang və Y.Zeng, KOB və startapların qarşılıqlı əlaqəsinin ekosistemə göstərdiyi təsirlə bağlı A. Cavallo, A. Ghezzi və C. Rossi-Lamastra tərəfindən elmi tədqiqatlar aparılmışdır. Qeyd edilən xarici alimlərin tədqiqatından çıxan nəticələr və beynəlxalq praktikada mövcud olan yeniliklərin Azərbaycanda sistematik tətbiqi imkanları bu dissertasiyada öyrənilmişdir. Həmçinin, Azərbaycanın sosial-iqtisadi imkanlarına uyğun KOB maliyyələşdirməsi modelinin əvvəlcədən öyrənilməyən mümkün istiqamətləri tədqiq edilmişdir.

Tədqiqatın obyekti. Tədqiqatın obyekti Azərbaycandakı mikro, kiçik və orta bizneslər, o cümlədən startaplar və onların maliyyələşmə mexanizmləridir.

Tədqiqatın predmeti. Tədqiqatın predmetini KOB-ların yeni maliyyələşmə yolları və istiqamətlərinin təhlili və bunun sayəsində ölkənin biznes mühitinə, iqtisadi inkişafına, o cümlədən biznes subyektlərinin reaksiyasına göstərəcəyi təsirin tədqiqi təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi Azərbaycan üçün yeni olan maliyyələşmə mexanizmləri vasitəsilə kiçik və orta bizneslərin maliyyələşdirilməsini və startaplara uğurlu dəstək siyasətini öyrənməkdir. Tədqiqat zamanı Azərbaycandakı mövcud vəziyyət təhlil edilərək bizneslərin inkişafı potensialı, riskləri və istiqamətləri, həmçinin xarici dövlətlərin təcrübələrinin tətbiqi imkanları müəyyənləşdirilir. Tədqiqatdan çıxan nəticələr əsasında isə dövlət siyasəti üçün yeni istiqamət və islahat təklifləri nəzərdən keçirilir.

Tədqiqat metodları. Tədqiqat zamanı Azərbaycan və dünya alimlərinin məqalələri, məruzələri, kitabları və digər elmi nəşrləri təhlil olunmuşdur. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının dövlət orqanlarının yaydığı statistik məlumatlar, rəylər, qanunlar, hesabatlar, qərarlar, o cümlədən beynəlxalq təşkilatların rəyləri, statistik məlumatları və hesabatları tədqiqat məqsədilə istifadə

olunmuşdır. Adı çəkilən mənbələr məntiqi ümumiləşdirmə, müqayisə, təhlil, riyazi hesablamalar kimi metodlardan istifadə edilməklə araşdırılmışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar. Müdafiə üçün aşağıdakı müddəalar təqdim edilir:

- Dünyada mövcud olan maliyyələşmə mexanizmlərinin təhlili və risklərinin müəyyən edilməsi.
- KOB-ların yeni mexanizmlərlə inkişafının ölkə iqtisadiyyatına göstərəcəyi mümkün təsir istiqamətləri.
- Alternativ maliyyələşmə və digər dəstək mexanizmlərinin Azərbaycanda tətbiqi imkanlarının təhlili.
- Ölkənin maliyyə sisteminin alternativ maliyyələşmə mexanizmlərinin tətbiqi üçün uyğunlaşdırılması və dövlətin islahat istiqamətləri.
- Yeni maliyyələşmə mexanizmlərinin işğaldan azad edilmiş ərazilərdə rolunun öyrənilməsi.

Tədqiqatın elmi yeniliyi. Tədqiqat nəticəsində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsi üzrə beynəlxalq təcrübə nəzərdən keçirilərək Azərbaycana uyğun maliyyələşmə və sahibkarlığa dəstək modeli təklif edilmişdir.
- Kriptovalyuta əsasında maliyyələşmənin KOB-lara tətbiqi riski zaman sıraları modeli əsasında qiymətləndirilmişdir.
- Sahibkarlıq subyektlərinin maliyyələşmə mexanizminin inkişafı üçün dövlət tərəfindən aparıla biləcək islahatların elmi əsasları açıqlanmışdır.
- Yeni maliyyələşmə mexanizmləri əsasında KOB-ların inkişaf etdirilməsinin işğaldan azad edilmiş ərazilərin inkişafına göstərdiyi mümkün təsirlər müəyyən edilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Mövcud mövzunun araşdırılması nəticəsində dövlət strategiyasına uyğun nəzəri bazanın yaradılması mümkündür. Belə ki, tədqiqat mövzusu ölkə başçısının 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"* əsasında müəyyənləşdirilən, həmçinin *"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa*

*dair I Dövlət Proqramı"*nda toxunulan bir çox istiqaməti əhatə edir. Bu istiqamətdə aparılan araşdırma Azərbaycanda sosial-iqtisadi inkişafa nail olmaq üçün aparılmalı olan islahatları müəyyənləşdirərək biznes mühitinin yaxşılaşdırılması istiqamətində Azərbaycanın inkişaf modelinə öz töhfəsini verə bilər. Sahibkarlığın inkişafının insanların rifahına birbaşa təsir göstərdiyini və vergi daxilolmalarını artırdığını nəzərə alsaq, tədqiqat xüsusi praktiki əhəmiyyətə malikdir. Eyni zamanda, biznes mühitinin və elmi inkişafın qarşılıqlı əlaqəsi onu deməyə əsas verir ki, tədqiqatın nəticələri ölkənin elmi potensialının artırılmasında da rol oynaya bilər.

Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi. Dissertasiyanın nəticələri 2022-2024-cü illərdə 6 elmi jurnalda və 4 elmi konfrans kitabında dərc edilmişdir. Elmi məqalələrdən ikisi xarici ölkədə nəşr olunan dövri elmi jurnaldır. Bunlar Braziliyada dərc edilən *"International Journal of Professional Business Review"* və Polşada dərc edilən *"Futurity Economics and Law"* jurnallarıdır. Elmi işin nəticəsinin məruzə edildiyi elmi konfranslardan biri – *"The International Conference on Modern Research in Management, Economics and Accounting"* Almaniyanın Berlin şəhərində keçirilmişdir.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş (7211 işarə), üç fəsil (I fəsil 80710 işarə, II fəsil 79553 işarə, III fəsil 60521 işarə), nəticə (4612 işarə) və 144 adda ədəbiyyat siyahısından, həmçinin 23 ədəd cədvəl, qrafik və şəkildən ibarət olmaqla, mətndəki boşluqlar və şəkillər, cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə ümumilikdə 232607 işarədən ibarətdir.

DİSSERTASİYA İŞİNİN STRUKTURU

Giriş

I Fəsil. İqtisadi strukturların maliyyələşmə mexanizmlərinin nəzəri-metodoloji əsasları

1.1. Kiçik və orta biznes subyektlərinin formalaşmasının nəzəri aspektləri

1.2. Kiçik və orta biznes subyektlərinin ÜDM-in formalaşmasında rolu

1.3. Kiçik və orta biznes subyektlərinin ənənəvi və müasir maliyyələşmə mexanizmləri

II Fəsil. Azərbaycanda kiçik və orta biznesin inkişafında tətbiq olunan maliyyələşmə mexanizmlərinin mövcud vəziyyəti

2.1. Kiçik və orta biznesdə tətbiq olunan ənənəvi və müasir maliyyələşmə mexanizmlərinin problemləri

2.2. Kiçik və orta biznesdə tətbiq olunan müxtəlif maliyyələşmə mexanizmlərinin risklərinin təhlili

2.3. Kiçik və orta sahibkarlığın maliyyələşmə mexanizmlərinin beynəlxalq təcrübələr üzrə qiymətləndirilməsi

III Fəsil. Azərbaycan Respublikasında kiçik və orta biznes subyektlərinin maliyyələşmə mexanizmlərinin inkişaf perspektivləri

3.1. Kiçik və orta sahibkarlığın yeni maliyyələşmə mexanizmlərinin tətbiqi imkanları və əlverişli biznes mühitinin yaradılmasının əsas meyilləri

3.2. Kiçik və orta biznesin yeni maliyyələşmə mexanizmlərinin tətbiqində dövlət dəstəyinin gücləndirilməsi istiqamətləri

3.3. Kiçik və orta biznes sahəsində yeni maliyyələşmə mexanizmlərinin tətbiqinin işğaldan azad edilmiş regionların bərpasında rolunun təkmilləşdirilməsi

Nəticə

İstifadə edilmiş ədəbiyyat siyahısı

Əlavələr

TƏDQİQATIN ƏSAS MƏZMUNU

1. Kiçik və orta biznes subyektlərinin formalaşmasının nəzəri-metodoloji əsasları

Klassik iqtisadi nəzəriyyənin mərkəzində şəxsi maraq və rəqabətli bazarlar anlayışı dayanır. Adam Smitin *"görünməz əl"i* fərdi sahibkarlıq səylərinin resursları səmərəli şəkildə bölüşdürməklə və müxtəlif istehlakçı ehtiyaclarını qarşılamaqla ümumi ictimai sərvətə necə töhfə verdiyini göstərir. KOB-lar ölçülərinə və sahələrinə müvafiq olaraq bu prosesdə mühüm rol oynayaraq kiçik bazarları ələ keçirir və rəqabəti gücləndirir.

Keyns prinsipləri KOB formalaşmasını daha böyük iqtisadi ekosistem daxilində kontekstləşdirir. Effektiv tələb iqtisadi fəaliyyətin hərəkətverici qüvvəsi olaraq KOB əməliyyatlarının davam etdirilməsində istehlakçı xərcləmələrini və ev təsərrüfatlarının gəlirlərinin əhəmiyyətini vurğulayır.

Azad bazar iqtisadiyyatı tərəfdarları, o cümlədən Milton Fridman, KOB-ların çevikliyini və müstəqilliyini təmin etmək üçün hökumətin məhdud müdaxiləsinin vacibliyini vurğulayırlar. Fridrix Hayek tərəfindən vurğulanan mərkəzləşdirilməmiş bilik və qərar qəbuletmə isə başqa bir mühüm perspektiv təqdim edir. KOB-lar lokal, kontekstə xas biliklərdən istifadə edərək dəyişkən istehlakçı ehtiyaclarına və bazar tendensiyalarına uyğunlaşırlar. Adətən bu üstünlüklər böyük biznes subyektləri üçün əlçatan olmur.[1]

Dayanıqlılığın iqtisadi strategiyalara inteqrasiyası KOB-ların gözləntilərini və töhfələrini də yenidən formalaşdırmışdır. Ətraf mühitə həssas yanaşmaları tətbiq etməyə təşviq edilən bu bizneslər daha yaşıl və daha ədalətli iqtisadiyyatın qurulmasında mühüm rol oynayırlar. Sosial və ekoloji prioritetləri iqtisadi məqsədlərlə yanaşı həll edərək, KOB-lar dayanıqlı inkişafı təşviq edən geniş qlobal təşəbbüslərlə uyğunlaşırlar.

[1] Michaelides, P.G. History of Economic Ideas: From Adam Smith to Paul Krugman / P.G. Michaelides, T.E. Papadakis – Palgrave Macmillan – 2023. –186 p. – URL: https://doi.org/10.1007/978-3-031-19697-3

Beləliklə, KOB-ların formalaşmasının nəzəri-metodoloji əsasları klassik və müasir iqtisadi doktrinaların zəngin bir vəhdətini ehtiva edir. Bu yanaşma təkcə KOB-ların inkişafının mürəkkəb mexanizmlərini vurğulamaqla qalmır, həm də onların innovasiyaları təşviq etmək, dayanıqlılığı gücləndirmək və müxtəlif kontekstlərdə sosial-iqtisadi dayanıqlılığı artırmaq baxımından əhəmiyyətli rolunu ön plana çıxarır.

Kiçik və orta biznes subyektlərinin (KOB) maliyyələşməsində artıq keçən əsrdən başlayaraq ənənəvi maliyyələşmə yollarından savayı yeni mexanizmlərin tətbiqi də zəruri olmuşdur. KOB subyektlərinin müasir dövrdə maliyyələşməsini daha dərindən anlamaq üçün onların təşkilati-hüquqi formalarını və növlərini daha dərindən anlamalı, mümkün inkişaf mərhələlərinin spesifik xüsusiyyətlərini qeyd etmək lazımdır. Dünya Bankının məlumatına görə KOB-lar ölkə iqtisadiyyatının, xüsusən də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının inkişafında əsas aparıcı qüvvədir. Dünyadakı biznes subyektlərinin 90 faizi, iş yerlərinin isə 50 faizi KOB-ların payına düşür. İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının 40 faizini kiçik və orta biznes subyektləri təşkil edir[2]. Əgər buraya yeni yaranan startapları da əlavə etsək, daha böyük rəqəmləri görə bilərik. Çünki dördüncü sənaye inqilabı yeni texnologiyalara əsaslanan bizneslər aktuallaşdırmışdır ki, startaplar da məhz innovativ ideyalar əsasında qurulan sahibkarlıq subyektləridir. Bu səbəbdən də bu dissertasiyada kiçik və orta biznes subyektlərinə startaplar da aid edilir.

Ümumilikdə biznes subyektlərinin ölçüsünə görə bölgüsü müxtəlif ölkələrin iqtisadi siyasətlərinə və digər qanunauyğunluqlarına görə dəyişir. Lakin mikro, kiçik və orta ölçülü bizneslər üçün bir çox ölkələr, onların iqtisadiyyatdakı sahibkarlıq subyektlərinin 90 faizindən çoxunu əhatə etdiyini nəzərə alaraq, xüsusi proqramlar və dəstək mexanizmləri formalaşdırmışlar. Azərbaycanda da bu dəstək mexanizmləri inkişaf etdirilməkdədir. *"Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"*nın təsdiq edilməsi

[2] Small and Medium Enterprises (SMEs) Finance: [Electronic resource] / The World Bank. – Washington, 2023. – URL: https://www.worldbank.org/en/topic/smefinance#:~:text=SMEs%20account%20for%20the%20majority,(GDP)%20in%20emerging%20economies.

haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli qərarında KOB və iri sahibkarlıq subyektlərinin bölgüsü aşağıdakı kimi qəbul edilmişdir[3]:

- **Mikro** biznes – işçi sayı 10 nəfərə qədər və illik gəliri 200 min manata qədər olan sahibkarlıq subyektləri
- **Kiçik** biznes – işçi sayı 11 nəfərdən 50 nəfərə qədər olan və illik gəliri 200 min manatdan 3 milyon manata qədər olan sahibkarlıq subyektləri
- **Orta** biznes – işçi sayı 51 nəfərdən 250 nəfərə qədər olan və illik gəliri 3 milyon manatdan 30 milyon manata qədər olan sahibkarlıq subyektləri
- **Böyük** biznes – 251 nəfərdən çox işçisi olan və illik gəliri 30 milyon manatdan çox olan sahibkarlıq subyektləri

Müqayisə üçün qeyd etmək lazımdır ki, Azərbaycanın sahibkarlıq subyektləri ilə bağlı apardığı təsnifat Avropa Komissiyasının təsnifatına çox bənzərdir. Buna baxmayaraq, işçi sayı ilə bağlı oxşarlıqlar olsa da, bizneslərin gəlirləri ilə bağlı meyarların fərqli olması ölkədəki gəlirlilik göstəricilərinə görə müəyyən edilir. Buna görə də təsnifatdakı gəlirlilik göstəriciləri Azərbaycanda daha aşağıdır.

KOB-ların ölçü təsnifatı və startapların tərifi ilə yanaşı biznes subyektlərinin hüquqi strukturu da xüsusi əhəmiyyət daşıyan amillərdəndir. Ümumiyyətlə dünyada əsas biznes strukturları fərdi sahibkarlıq (və ya tək sahibkarlıq), ortaqlıq, kooperativ və korporasiya (cəmiyyət) formasında fəaliyyət göstərirlər. Cəmiyyət formalı strukturların özü də bir neçə yerə bölünür. Bu biznes subyektləri əsasən məhdud məsuliyyətli cəmiyyət (MMC), açıq səhmdar cəmiyyəti (ASC) və qapalı səhmdar cəmiyyəti (QSC) kimi fəaliyyət göstərir. Bundan əlavə qeyd edilən təşkilati-hüquqi strukturlar fiziki və hüquqi şəxs olaraq iki yerə bölünür.

[3] "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı: [Elektron resurs] / 21 dekabr 2018-ci ildə qəbul edilmişdir (4 mart 2022-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı, 2022, - URL: https://e-qanun.az/framework/41048

2. Kiçik və orta biznes subyektlərinin ÜDM-in formalaşmasında rolu

KOB-ların iqtisadiyyat üzərindəki təsirini iki yerə bölə bilərik: effektiv iqtisadi mühit daxilində ÜDM artımına dəstək verən KOB-lar və qeyri-effektiv iqtisadi mühitdə ciddi əhəmiyyət kəsb etməyən KOB-lar. Misal üçün inkişaf etmiş təhsil sisteminə, oturuşmuş maliyyə sisteminə, o cümlədən effektiv biznes dəstəyi mexanizmlərinə malik inkişaf etmiş dövlətlərin KOB-ları ölkə ÜDM-nin ortalama 55 faizini təşkil edirsə, inkişaf etməkdə olan ölkələrdə bu rəqəm 35-40 faizdir. Ümumilikdə, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə mikro, kiçik və orta sahibkarlıq subyektləri bütün sahibkarlıq subyektlərinin 90 faizindən çoxunu təşkil edir[4]. Azərbaycanda isə 2022-ci ildə KOB-ların ÜDM-də payı 13,9 faiz, qeyri-neft ixracında isə payı 35,2 faiz olmuşdur. Lakin buna baxmayaraq, 2022-ci ildə KOB-lar Azərbaycan üzrə məşğulluğun 41,8 faizini təşkil etmişdir. ÜDM-də payının 13,9 faiz olmasına baxmayaraq KOB-ların əhalinin iş yerləri ilə təmin edilməsində müstəsna rol oynaması işsizliyin azaldılmasında KOB-ların xüsusi əhəmiyyətini göstərir[5]. Onu da qeyd etmək lazımdır ki, Avropa Birliyində iş yerlərinin 60 faizindən çoxunu KOB-lar təmin edir. Həmçinin əvvəlki araşdırmalar göstərir ki, KOB-ların sayı ilə ÜDM arasında müsbət korrelyasiya mövcuddur[6].

İnkişaf etmiş ölkələrdə KOB-ların sürətli böyüyərək *"unicorn"*lara və qlobal şirkətlərə çevrildiyi hallar az deyil. Bu KOB-ların əksəriyyəti ilkin mərhələdə yüksək investisiya tələb edən texnologiya şirkətləridir. Buna dünya təcrübəsində xeyli nümunələr göstərmək olar. Məsələn, "*Amazon", "Meta"* (keçmiş *"Facebook"*) və *"Google"* kimi dünya texnologiya nəhəngləri ilkin mərhələdə güclü biznes mühitində yaranmış kiçik startaplar idilər. Bu gün isə bu şirkətlərin bazar kapitalizasiyası müvafiq olaraq təxminən 1,3 trilyon,

[4] World Trade Report 2016: Levelling the Trading Field for SMEs: [Electronic resource] / Bakı, 2016, – URL: https://doi.org/10.30875/4348b814-en

[5] Kiçik və Orta Biznesin İnkişafı Agentliyi 2023 Hesabatı: [Elektron resurs] / Bakı, 2023, – URL: https://smb.gov.az/storage/HESABAT2023.pdf.

[6] Woźniak, M. Relations of GDP Growth and Development of SMEs in Poland. / M. Woźniak, J. Duda, A. Gąsior [et al.] // Procedia Computer Science, – Manchester: – 2019, 159, pp. 2470–2480. URL: https://doi.org/10.1016/j.procs.2019.09.422.

834 milyard və 1,7 trilyon ABŞ dollarıdır[7] [8] [9]. 2022-ci ildə ABŞ-ın ÜDM-nin 25,5 trilyon dollar olduğunu nəzərə alsaq, bu üç keçmiş startapın bazar dəyəri ABŞ ÜDM-nin 15 faizini təşkil edir[10]. Bunun reallaşmasının əsas səbəblərindən biri də ABŞ-dakı vençur investisiya və kapital bazarlarının açdığı imkanlardır. Lakin kapital bazarı olmadığı və ya qeyri-funksional olduğu halda investorlar hissələrin satılması ilə bağlı problem yaşayırlar. Nəticədə innovativ KOB-lar olan startapların maliyyələşdirilməsində problemlər yaranır. Startaplar və ənənəvi KOB-ların maliyyələşdirilməsi üçün maliyyə sisteminin digər mexanizmi olan bankların da dayanıqlı və ölkə üzrə makroiqtisadi göstəricilərin sabit olması əhəmiyyətlidir. Mərkəzi Bankın makroiqtisadi və pul-kredit göstəricilərinin sabitliyini təmin etməsi KOB-ların inkişafına, KOB-ların da inkişafı iqtisadi dayanıqlığın artmasına töhfə verir. Yüksək inflyasiya, məzənnə üzrə qeyri-sabitlik, faiz dərəcələrinin yüksəlməsi kimi problemlər KOB-ların maliyyələşməsinə mənfi təsir göstərdiyi kimi, onların ÜDM artımı və işsizliyin azaldılması istiqamətindəki müsbət təsirinin da qarşısını alır. Buna görə də daha dayanıqlı makroiqtisadi sabitliyin təmin olunduğu ölkələrdə KOB-ların və innovativ startapların müsbət təsiri daha qabarıq görünür.

3. Kiçik və orta biznes subyektlərinin ənənəvi və müasir maliyyələşmə mexanizmləri

Kiçik və orta bizneslər müxtəlif müasir və ənənəvi yollarla maliyyələşməni həyata keçirə bilirlər. Beləliklə, maliyyələşmə mexanizmlərinin aşağıdakı növlərinin ətraflı nəzərdən keçirilməsi vacibdir:

- Şəxsi və ailə vəsaitləri

[7] Yahoo Finance: Amazon.com, Inc. (AMZN) Stock Price, News, Quote & History: [Electronic resource] / Baku, 2023, – URL: https://finance.yahoo.com/quote/AMZN/
[8] Yahoo Finance: Alphabet Inc. (GOOG) Stock Price, News, Quote & History: [Electronic resource] / Baku, 2023, – URL: https://finance.yahoo.com/quote/GOOG/
[9] Yahoo Finance: Meta Platforms, Inc. (META) Stock Price, News, Quote & History: [Electronic resource] / Baku, 2023, – URL: https://finance.yahoo.com/quote/META/
[10] World Bank Open Data: GDP (current US$) - United States: [Electronic resource] / Baku, 2022, – URL: https://data.worldbank.org


- Bank kreditləri (biznes kreditləri)
- Qeyri-bank kreditləri
- Kapital maliyyələşməsi (vençur fondlar, biznes mələkləri və s.)
- Kraudfandinq
- Dövlət dəstəyi (subsidiyalar, qrantlar və s.) və dövlət-özəl müştərək fəaliyyəti
- Faktorinq və forfeytinq
- İslam maliyyələşmə mexanizmləri
- Blokçeyn texnologiyaları əsasında maliyyələşmə

Yuxarıda qeyd edilən istiqamətlərdən kapital maliyyələşməsi, kraudfandinq və blokçeyn mexanizmi əsasında maliyyələşməni müasir maliyyələşmə mexanizmlərinə aid edə bilərik. Digər mexanizmlər isə ənənəvi üsullara aiddir. Lakin bank krediti əsasında ənənəvi maliyyələşmənin blokçeyn texnologiyası əsasında müasir transformasiyasını öyrənən elmi araşdırmalar da mövcuddur[11].

4. Kiçik və orta biznesdə tətbiq olunan ənənəvi və müasir maliyyələşmə mexanizmlərinin problemləri

Ümumiyyətlə, bizneslərin maliyyələşmə problemlərinin kökü müxtəlif sosial-iqtisadi faktorlarla bağlıdır. Xüsusən KOB-ların maliyyələşməsinə təsir edən müxtəlif sosial-iqtisadi faktorlar mövcuddur. Bu faktorların iqtisadi mühitdə olmaması və ya zəif inkişaf etməsi biznes subyektlərinin maliyyələşməyə çıxış imkanlarının məhdudlaşması və ölkədəki biznes mühitinin əlverişsiz olması kimi bir çox problemlərə səbəb olur. KOB-lara təsir göstərən sosial-iqtisadi faktorlara biznes subyektlərinə dövlət dəstəyi, requlyativ tənzimləmələr, təhsil və texnologiyaya edilən investisiya və korrupsiyaya qarşı mübarizənin effektivliyi daxildir.

[11] Wang, R. Blockchain, bank credit and SME financing. / R. Wang, Z. Lin, H. Luo // Quality & Quantity, – Amsterdam: – 2019. 53(3), – pp. 1127-1140. URL: https://doi.org/10.1007/s11135-018-0806-6



Qrafik 1. Sosial-iqtisadi faktorların Azərbaycan üzrə 11 illik qrafik təsviri

Mənbə: Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir[12].

Panel məlumatları içərisindən Azərbaycanla bağlı tendensiyanı daha aydın vizuallaşdıra bilmək üçün Qrafik 2.1.1-də yuxarıda qeyd edilən hər 5 dəyişən üzrə 11 illik məlumatlar bir koordinat müstəvisində qeyd edilmişdir. Qrafikdən görünən odur ki Azərbaycanda 2010 və 2020-ci illər arasında şəffaflıq, qanunun aliliyi və təhsil üzrə dövlət xərcləri ilə bağlı artım tendensiyası müşahidə edilmişdir. Həmçinin yeni qeydiyyatdan keçmiş biznes subyektlərinin sıxlığı göstəricisində də müsbət tendensiya olmuşdur. Buna görə ilkin olaraq Azərbaycanda şəffaflıq, qanunun aliliyi və təhsil xərclərinin yeni bizneslərin sayına müsbət təsir göstərdiyini fərz edə bilərik.

2010-2020-ci illəri əhatə edən seçilmiş 5 dəyişən və müxtəlif iqtisadi vəziyyətə malik 55 ölkə üzrə ixtiyari effekt modeli əsasında aparılan ekonometrik təhlilin nəticəsi də göstərir ki, korrupsiyaya

[12] World Development Indicators: DataBank: [Electronic resource] / Baku, 2023, – URL: https://databank.worldbank.org/source/world-development-indicators

güclü nəzarət və qanunun aliliyi biznes mühitinə, innovativ yanaşmalara və texnoloji inkişafa müsbət təsir göstərir.

5. Kiçik və orta biznesdə tətbiq olunan müxtəlif maliyyələşmə mexanizmlərinin risklərinin təhlili

KOB-ların maliyyələşmə mexanizmləri üzrə müxtəlif risklər mövcuddur. Biznes kreditlərindən istifadə bank və sahibkar arasındakı inamsızlıq (informasiya asimmetriyası), girov çatışmazlığı, yüksək faizlərin tətbiq edilməsi riskləri yaradır. Bu problemlər KOB-ların biznes kreditinə çıxışına maneə törədir. Mikromaliyyə təşkilatları və BOKT-lar vasitəsilə maliyyələşmədə də oxşar risklər vardır. Kraudfandinq vasitəsilə maliyyələşmə daha əlçatan olsa da, burada yüksək məbləğli daimi vəsaitlərin təmin edilməsinin çətin olması bizneslər üçün əlavə likvidlik riskləri yarada bilər. Kapital maliyyələşməsində də müəyyən risklər mövcuddur. Burada biznes subyektinin ideya müəllifinin idarəetməni itirməsi ehtimalı vardır. Yeni yaranan və oturuşmuş idarəetməyə malik olmayan biznes subyektlərində defolt riski çox olduğu üçün vençur fondlar, fərdi investorlar və biznes mələkləri yatırım qarşılığında KOB-lardan daha çox pay və idarəetmədə iştirak hüququ tələb edirlər. Bununla da ideya müəllifi əsas biznes qərarlarındakı müstəqilliyini itirir. Burada dövlət və özəl investisiya fondlarının müştərək fəaliyyəti biznes subyektlərinin pay itirmə riskinin azaldılmasına kömək edə bilər. İslam maliyyəsində isə risklər daha çox bankların və digər investorların üzərinə düşür. Burada faiz qadağan edildiyi üçün bizneslərə edilən investisiya əsasən şəriklik məntiqinə əsaslanır. Bu da KOB-ların bütün risklərinin investorla bölüşdürülməsinə səbəb olur. İslam maliyyəsi KOB-lar üçün daha aşağı riskli və məqbul hesab edilir. İnvestorlar üçün isə daha az cəlbedicidir.

Blokçeyn texnologiyası əsasında maliyyələşmənin, xüsusən də kriptovalyutaların KOB-larda istifadəsinin riskləri isə elmi mənbələrdə daha az araşdırılmışdır. Blokçeyn texnologiyaları ilə bağlı əsas risk kriptovalyutaların volatilliyidir. Bu, onların gündəlik biznes proseslərində istifadəsini çətinləşdirir və KOB-larda tətbiqi zamanı valyuta risklərinin yaranmağına səbəb ola bilir. Buna görə də

dissertasiyada valyuta risklərinin qiymətləndirilməsi üçün kriptovalyutaların volatilliyinin kəmiyyət təhlili aparılmışdır.

Bitkoin gəlirləri ilə ekzogen dəyişən olan Nasdaq Composite indeksi arasındakı əlaqəni modelləşdirmək üçün məşhur zaman sıraları modellərindən, ARMAX və GARCH-dan istifadə edilmişdir. ARMAX modelləri proqnozlaşdırma və nəzarət üçün, GARCH modelləri isə maliyyə zaman sıralarında şərti dispersiyaları modelləşdirmək və qiymətləndirmək üçün istifadə olunur[13]. Bunun üçün 5 ili əhatə edən Bitkoin və Nasdaq Composite indeksinin qiymətləri əldə edilmişdir. Bitkoinin 23.03.2018-22.03.2023 tarixləri arasındakı qiymətləri, Nasdaq Composite indeksinin isə 23.03.2018-21.03.2023 tarix aralığındakı qiymətləri empirik analizdə istifadə edilmişdir[14].

Seçilmiş ən uyğun ARMAX modeli olan ARMA(7,1)X(2) modeli aşağıdakı kimidir:

$$rt_{Bit_t} = \alpha + \beta_1 * rt_{Bit_{t-1}} + \beta_2 * rt_{Bit_{t-2}} + \beta_3 * rt_{Bit_{t-3}} + \cdots + \beta_7 * rt_{Bit_{t-7}} + \delta_1 * rt_{Nas_{t-1}} + \delta_2 * rt_{Nas_{t-2}} + \gamma_1 * X_{Bit} + \gamma_2 * X_{Nas} + \epsilon_t + \theta_1 * \epsilon_{t-1}$$

Burada:

rt_{Bit_t} – *"t"* zamanında Bitkoin gəlirləridir,

α – Kəsişmə parametridir,

β_i – *"t-i"* zamanında olan Bitkoin gəlirliyi əmsalıdır,

δ – Nasdaq Composite indeksi gəlirliyi əmsalıdır,

$rt_{Nas_{t-1}}$ – *"t-1"* zamanında Nasdaq Composite indeksi gəlirləridir,

ϵ_t– *"t"* zamanında xəta ifadəsidir. Normal paylandığı $(N{\sim}(0, \sigma^2))$ fərz edilir,

θ – Xəta göstəricisi əmsalıdır,

[13] Sharma, S. Modelling Volatility of Size Indices Through Garch and Tgarch Models: Evidence from India // - Miami: International Journal of Professional Business Review, - 2023, 8(4), e01639. – pp. 1-13. URL: https://doi.org/10.26668/businessreview/2023.v8i4.1639

[14] Bitcoin USD (BTC-USD) Historical Data: [Electronic resource] / Yahoo Finance, - 2023. URL: https://finance.yahoo.com/quote/BTC-USD/history/

X_{Bit} – Bitkoin gəlirliyi üzrə kənar göstəriciləri ifadə edən fiktiv dəyişənlər vektorudur,

X_{Nas} – Nasdaq Composite indeksi gəlirliyi üzrə kənar göstəriciləri ifadə edən fiktiv dəyişənlər vektorudur,

γ_1 – Bitkoin gəlirliyi üzrə kənar göstəriciləri ifadə edən fiktiv dəyişənin əmsallar vektorudur,

γ_2 – Nasdaq Composite indeksi gəlirliyi üzrə kənar göstəriciləri ifadə edən fiktiv dəyişənin əmsallar vektorudur.

Ljung-Box Q-testinə görə qeyd edilən model üzrə qalıqlarda serial korrelyasiya yoxdur. Beləliklə, modeli uyğun hesab etmək olar. Kriptovalyutaların volatilliyini modelləşdirmək üçün isə seçilən ARMAX modelinin qalıqlarından istifadə etməklə GARCH(1,1) volatillik modeli qurulmuşdur. GARCH modeli xəta dispersiyasının təkcə keçmiş xətalar kvadratlarının deyil, həm də keçmiş dispersiyalarının funksiyası olmasına imkan verir. Modelin düsturu aşağıdakı formadadır:

$$y_t = \mu_t + \epsilon_t$$
$$\epsilon_t = \sigma_t * z_t$$
$$\sigma_t^2 = \omega + \sum_{i=1}^{p} \alpha_i \epsilon_{t-i}^2 + \sum_{j=1}^{q} \beta_j \sigma_{t-j}^2$$

Burada:

y_t – *"t"* zamanında müşahidə olunan zaman sıraları məlumatlarıdır,

μ_t – *"t"* zamanında y_t-nin şərti riyazi gözləməsidir,

ϵ_t – *"t"* zamanındakı xətanı (y_t-nin şərti riyazi gözləmədən yayınmasını) ifadə edir,

σ_t – *"t"* zamanında ϵ_t-nin şərti standart kənarlaşmasını ifadə edir,

z_t – riyazi gözləməsi sıfıra və dispersiyası vahidə bərabər olan standart normal təsadüfi dəyişəndir,

ω – xəta dispersiyasının uzunmüddətli ədədi ortasını göstərən sabitdir,

α_i – *"t-i"* zamanında xəta kvadratına verilən çəkini ifadə edir,

β_j – *"t-j"* zamanında dispersiyaya verilən çəkini ifadə edir.

Bu tədqiqat üçün seçilən məlumatlar və ARMAX modeli əsasında formalaşan GARCH(1,1) modelinin düsturu aşağıdakı kimidir:

$$\sigma_t^2 = 0.3191 + 0.0494\epsilon_{t-1}^2 + 0.9242\sigma_{t-1}^2$$

Modelin bütün parametrləri azı 95 faiz əminlik səviyyəsində statistik əhəmiyyətlidir.

Nəticə etibarilə, ARMAX və GARCH(1,1) modellərinin nəticələri Nasdaq indeksi ilə təmsil olunan iqtisadiyyatdakı şokların Bitkoinin gəlirlərinə təsir göstərə biləcəyini göstərir. Xüsusilə, Nasdaq gəlirlərindəki mənfi kənar göstəricilərin Bitkoin gəlirlərini azaltdığı, müsbət kənar göstəricilərin isə həm mənfi, həm də müsbət təsirləri olduğu aşkar edilmişdir. Bu, Bitkoin və ənənəvi maliyyə bazarları arasındakı əlaqənin mürəkkəb olduğunu və müxtəlif amillərdən təsirlənə biləcəyini göstərir. Bundan əlavə, GARCH(1,1) modelində Bitkoin gəlirləri üçün təxmin edilən omeqa, alfa və beta dəyərləri xəta dispersiyasının uzunmüddətli orta səviyyəsinin nisbətən yüksək olduğunu və keçmiş dispersiyanın cari dispersiyaya güclü təsir göstərdiyini sübut edir. Bu, risklərin idarə edilməsi və investisiya qərarları üçün mühüm təsirləri olan Bitkoin gəlirlərinin volatilliyinin davamlılığı ilə xarakterizə olunur.

6. Kiçik və orta sahibkarlığın maliyyələşmə mexanizmlərinin beynəlxalq təcrübələr üzrə qiymətləndirilməsi

Kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsinə və hökumətlərin maliyyələşmə strategiyasının istiqamətlərinə görə dünya ölkələrində müxtəlif təcrübələr mövcuddur. Xüsusən, inkişaf etmiş ölkələrin bu istiqamətdə maraqlı təcrübələri vardır. Tədqiqatın bu hissəsində əsasən İsrail, Cənubi Korea və Sinqapurun KOB-ların maliyyələşdirilməsi ilə bağlı təcrübələrinə toxunulmuşdur.

İsrailin KOB-ları maliyyələşdirmək üçün müəyyən etdiyi istiqamətləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Ordunun və kəşfiyyat xidmətinin tələbləri,
- İmmiqrasiya siyasəti,
- İnsan kapitalına yatırım,

- Maliyyələşdirmə üçün dövlət-özəl əməkdaşlıq proqramları (vençur kapital fondları),
- Millətin sosial-mədəni xüsusiyyətləri.

Qeyd edilən qabaqcıl ölkələrdəki təcrübələrin təhlilləri göstərir ki, daha yaxşı biznes mühitinin, innovativ şirkətlərin və yaxşı fəaliyyət göstərən maliyyə mexanizmlərinin yaradılması üçün dövlət dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Hazırkı şəraitdə İsrail sosial-mədəni xüsusiyyətlərə əsaslanaraq, ordu və kəşfiyyat mənbələri, immiqrasiya siyasəti, insan kapitalı sərmayəsi və dövlət-özəl əməkdaşlıq proqramları vasitəsilə KOB-ların maliyyələşdirməsini inkişaf etdirir. Bundan əlavə, xarici maliyyə və idarəetmə dəstəyi daha yaxşı nəticələr verə bilər.

Sinqapur isə KOB-ların inkişafı üçün əsasən aşağıdakı tədbirlərə əsaslanır: bürokratik yüklərin azaldılması və mülkiyyət hüquqlarının müdafiəsinin gücləndirilməsi; infrastrukturun inkişafı; aşağı vergi dərəcələri vasitəsilə fiskal siyasətin tənzimlənməsi; insan kapitalına investisiya; tədqiqat və inkişafın maliyyələşdirilməsi. Bununla belə, Sinqapur bu tədbirlərin həyata keçirilməsində müəyyən çətinliklərlə üzləşir. Problemin əsasında bizneslərin genişlənməsinə maneə dayanır ki, bu İsrail KOB-ları üçün də xarakterikdir. Buna baxmayaraq Sinqapur xarici investisiyalar üçün cəlbedici ölkə hesab edilir.

Cənubi Koreyanın KOB-ların maliyyələşməsi ilə bağlı təcrübəsi isə digər iki ölkədən fərqlidir. Koreyada dövlət tərəfindən KOB-ların kreditləşməsi populyarlıq və effektivlik qazanmışdır ki, bu da digər ölkələrdə yaxşı təcrübə kimi tətbiq oluna bilər. Qeyd edilən üç ölkədə KOB-ların maliyyələşdirilməsi təcrübələrini təhlil edərkən qeyd etmək vacibdir ki, yaxşı işləyən maliyyələşmə və inkişaf proqramının yaradılması üçün kompleks yanaşma lazımdır. Əgər dövlətin maliyyələşmə proqramlarının idarəetməsi effektiv çalışmırsa və şəffaf deyilsə, bu, ciddi reputasiya riskləri yarada və maliyyələşmə siyasətində uğursuzluqla nəticələnə bilər.

7. Azərbaycanda kiçik və orta sahibkarlığın yeni maliyyələşmə mexanizmlərinin tətbiqi imkanları və dövlət dəstəyinin gücləndirilməsi istiqamətləri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2023-cü ilin yanvarın 1-nə olan məlumatına görə Azərbaycanda 1.388.293 sahibkarlıq subyekti mövcud olmuşdur və onlardan yalnız 164.618-i və ya 11,9 faizi mikro, kiçik və orta sahibkarlıq subyekti kimi təsnifləşdirilmişdir. Qeyd edilən sahibkarlıq subyeklərindən 1.222.859 ədədi və ya 88,1 faizi fərdi sahibkarlar kimi, 816-sı və ya təxminən 0,06 faizi isə iri sahibkarlıq subyektləri kimi təsnifləşdirilmişdir. Lakin KOB-ların ölkə iqtisadiyyatındakı payına onlar tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərinə əsasən baxsaq görərik ki, KOB-lar tərəfindən 2022-ci il ərzində təxminən 29 milyard manatlıq işlər yerinə yetirilmiş, xidmət göstərilmiş və əmtəə istehsal edilmişdir. Qeyd edilən 29 milyardıq dövriyyənin təxminən 19,3 milyard manatı və ya 66,6 faizi Bakı şəhərində fəaliyyət göstərən KOB-ların payına düşür. Digər rayonlarda fəaliyyət göstərən KOB-ların payı isə hər iqtisadi rayon üzrə təxminən 2-4 faiz arasında dəyişir. Bu da regionlarda KOB-ların inkişafına daha çox ehtiyacın olduğunu göstərir. Bundan əlavə, regionlarda maliyyələşmə xidmətlərinin əlçatanlığının artırılması və maarifləndirmə tədbirlərinə ehtiyac var. KOB-ların inkişaf etdirilməsi və vergi yüklərinin azaldılması uzunmüddətli dövrdə onların sayının artmasına və gələcəkdə dövlət büdcəsinə vergi daxilolmalarının artırılmasına da səbəb ola bilər. 2022-ci il üzrə dövlət büdcəsinə KOB-lar tərəfindən təxminən 1,8 milyard manat vergi ödənilmişdir ki, bu da həmən dövr üzrə büdcə gəlirlərinin 5,8 faizini təşkil etmişdir[15]. Azərbaycanın dövlət büdcəsinə nəzər salsaq kölgə iqtisadiyyatının azaldılması istiqamətindəki tədbirlər nəticəsində vergi gəlirlərinin artmasına baxmayaraq, hələ də neft sektorunun gəlirlərinin dövlət büdcəsi gəlirlərinin əsasını təşkil etdiyini görə bilərik. Halbuki, KOB və startapların inkişafı gələcəkdə qeyri-neft sektoru üzrə vergi daxilolmaları hesabına büdcənin əhəmiyyətli hissəsinin

[15] Azərbaycanda sahibkarlıq: [Elektron resurs] / Azərbaycan Respublikası Statistika Komitəsi. – Bakı, 2023. URL: https://www.stat.gov.az/source/entrepreneurship/

formalaşmasına kömək edə bilər. Bunun üçün neft fondundan transfertlərin bir hissəsinin KOB-ların maliyyələşdirilməsi tədbirlərinə, o cümlədən biznes mühitinin yaxşılaşdırılması istiqamətindəki addımlara yönəldilməsi zəruridir. Çünki həm vergi daxilolmaları, həm də ÜDM formalaşmasında KOB-lar Azərbaycanda hələ də əhəmiyyətli rola sahib deyil. Bu da iqtisadi inkişaf potensialının hələ də effektiv istifadə edilmədiyini deməyə əsas verir.

Startapların və digər KOB-ların akselerasiyadan sonrakı mərhələlərdə daha böyük vəsaitin cəlb edilməsi üçün vençur investisiya şirkətlərinə və biznes mələklərinə ehtiyacı yaranır. Son zamanda Azərbaycanda fərdi investorların sayında müəyyən artımın olduğu müşahidə edilmişdir. Lakin vençur fondlar nisbətən oturuşmuş startaplara investisiya etdikləri üçün Azərbaycanda onların çox da böyük portfeli yoxdur və bu hal, risklərin diversifikasiyasına mənfi təsir göstərir. Buna görə də Azərbaycanda yaranan vençur fondlar hələ də böyük məbləğli investisiyalar edə bilmirlər.

Ənənəvi KOB-ların maliyyələşməsində isə bank və qeyri-bank kreditləri xüsusi rola malikdir. Çünki ölkədə şəxsi vəsaitlərdən sonra ən əlçatan maliyyələşmə üsulu kreditlərdir. Lakin Azərbaycanın bank sektorunda müəyyən təmərküzləşmə var. Ciddi rəqabətin olmaması bankları və kredit təşkilatlarını riskli bizneslərə yatırım etməyə vadar etmir. Nəticədə banklar risk idarəetməsində konservativ yanaşma tətbiq edirlər.

Bank kreditləri və digər kredit təşkilatları vasitəsilə maliyyələşmənin daha bir problemi faiz dərəcələrinin mənfəət göstəricilərindən yüksək olmasıdır. Dünya bankının məlumatına görə Azərbaycanda 2023-cü ildə ortalama faiz dərəcəsi 14 faiz olmuşdur[16]. İnkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2023-cü ilin sonuna olan ortalama xalis gəlir marjasının 7,31 faiz, vergidən əvvəlki əməliyyat marjasının 8,23 faiz və vergidən sonrakı əməliyyat marjasının 7,16 faiz olduğunu nəzərə alaraq qeyd etmək lazımdır ki, illik 14 faizlik biznes krediti vasitəsilə maliyyə vəsaiti cəlb edən KOB-lar mənfəət əldə etməkdə çətinlik çəkə

[16] Lending interest rate: [Electronic resource] / World Bank Data. – 2024. URL: https://data.worldbank.org/indicator/FR.INR.LEND

bilərlər[17]. Bu hal KOB-ların biznes kreditinə çıxışını məhdudlaşdırır. Bunun aradan qaldırılması üçün dövlətin bank sektorunda rəqabəti artıracaq islahatlar etməsi və güzəştli kreditləri təmin etməsi zəruridir.

KOBİA tərəfindən aparılan *"KOB subyektlərinin alternativ maliyyə mənbələrindən istifadə səviyyəsinin müəyyən edilməsi"* sorğusu yuxarıda qeyd edilən dəstək mexanizmlərinin və tövsiyələrin əhəmiyyətini bir daha vurğulayır. 15.05.2024 – 15.06.2024 tarixlərində həyata keçirilən sorğuda Azərbaycanın müxtəlif iqtisadi rayonlarından 605 sahibkarlıq subyekti iştirak etmişdir[18]. Sorğu əsasında aşağıdakı qənaətə gəlmək olar:

- KOB subyektlərinin alternativ maliyyələşmə ilə bağlı maarifləndirilməsi üçün dövlət dəstək kanallarından intensiv şəkildə istifadə edilməsi KOB-ların maliyyə imkanlarını artıra bilər.
- Kredit faizlərinin azaldılması və bürokratik əngəllərin aradan qaldırılması istiqamətində kompleks tədbirlərin görülməsi zərurəti vardır.
- KOB-lara dövlət dəstəyini davam etdirərək innovativ maliyyələşmə mexanizmləri vasitəsilə tədricən dövlətdən asılılığının azaldılması istiqamətində tədbirlərin görülməsi KOB-ların maliyyə müstəqilliyinin artırılmasına və gələcəkdə dövlət vəsaitlərinin qənaətinə gətirib çıxara bilər.
- Startapların sayının artırılması hesabına bölgələrdə innovativ sahibkarlığın təşviqi KOB-ların müasir maliyyə həllərinə daha da yaxınlaşdıra bilər.
- Dövlət tərəfindən təşkil edilən KOB dəstək mexanizmlərinin səmərəliliyinin artırılması və idarəetməsinin təkmilləşdirilməsi istiqamətində addımların atılması cari maliyyələşmə mexanizmlərini KOB-ların üçün daha əlçatan edə bilər.

[17] Operating and Net Margins by Industry Sector: [Electronic resource] / Damodaran Online. – New York, 2024. URL: https://pages.stern.nyu.edu/~adamodar/New_Home_Page/datacurrent.html

[18] "KOB Subyektlərinin Alternativ Maliyyə Mənbələrindən İstifadə Səviyyəsinin Müəyyən Edilməsi" sorğusu: [Elektron resurs] / KOBİA. – Bakı, 2024. URL: https://smb.gov.az/az/nav/sorgular

Azərbaycandakı maliyyələşmə mexanizmlərinin inkişaf istiqamətlərindən biri də İslam maliyyəsindəki təcrübələrin Azərbaycana uyğunlaşdırılmış formada tətbiqi ola bilər. İslam maliyyəsinin daha az populyar olan və sahibkarlıq subyektlərinin inkişafına töhfə verə biləcək bir məhsulu qərzi-həsən adlanan borc növüdür. Faizsiz və müddətsiz verilən bu borc növü sosial məsuliyyətə əsaslansa da, iqtisadi böhran şəraitində sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədi ilə dövlət tərəfindən tətbiq edilə bilər. Həmçinin özəl sektorun bu borc növünə marağının artırılması məqsədilə qərzi-həsən borclarını KOB-ların səhm opsiyon imtiyazı ilə təmin etmək mümkündür. Belə ki, burada KOB-lara verilən faizsiz və müddətsiz borcun müqabilində investora sahibkarlıq subyektinin müəyyən sayda səhmini əvvəlcədən müqavilə ilə müəyyən edilən imtiyazlı qiymətə almaq hüququ verən opsiyon verilir. Əgər borc müqavilədə qeyd edilən müddətdə qaytarılmasa investor opsiyonu icra edir və sahibkarlıq subyektinə şərik olur. Burada sahibkar ucuz maliyyə mənbəyinə çıxış əldə etmiş olur. Həmçinin borcun qaytarılmadığı təqdirdə investor sahibkarlıq subyektinin səhm opsiyonları ilə öz riskini tənzimləmiş olur. Lakin kreditin faizsiz verilməsi onu özəl sektor üçün çox da cəlbedici etmir. Buna görə də opsiyonda müəyyən edilmiş icra qiymətinin mövcud bazar qiymətindən aşağı təyin edilməsi ilə investorlarda bu növ maliyyələşmə mexanizminə maraq yaratmaq mümkündür. Opsiyonlu borcun kapital bazarında digər investorlara satılması hüququnun verilməsi Azərbaycanda birjanın inkişafına və törəmə maliyyə alətlərinin bazara daxil olması ilə kapital bazarlarındakı maliyyə alətlərinin müxtəlifliyinə müsbət təsir göstərə bilər. Beləliklə, digər sahibkarlıq subyektləri üçün portfel diversifikasiyası istiqamətində yeni imkanlar da açılacaqdır.

Yuxarıda qeyd edilənləri ümumiləşdirsək Azərbaycanda KOB-ların inkişafına dövlət dəstəyini aşağıdakı istiqamətlər üzrə müəyyənləşdirə bilərik:

- Xarici və yerli fərdi investorların, o cümlədən vençur fondların sayının artırılması istiqamətində müəyyən dövlət qrantlarının, vergi güzəştlərinin və subsidiyaların tətbiq edilməsi;

- Vençur fondların sayının artırılmasına paralel olaraq ordudan təxris edilən yüksək ixtisaslı kadrların biznes mühitinə keçidinin təmin edilməsi üçün dəstəyin göstərilməsi;
- Dövlət-özəl müştərək vençur fondların yaradılması;
- Biznes kreditləri üçün faiz subsidiyalarının daha uzun müddətli kreditlərə də şamil edilməsi;
- Biznes kreditləri üzrə faizlərə iqtisadi vəziyyətə müvafiq tavan həddin təyin edilməsi;
- Regionlarda elektron dövlət xidmətlərinə əlçatanlığın artırılması;
- Elmi-tədqiqat işlərinin və formalaşan yüksək ixtisaslı kadrların innovativ bizneslərə transferinin həyata keçirilməsi üçün dövlət layihələrinin təşkil edilməsi.
- Biznes sahiblərinin maliyyə savadlılığının artırılmasına yönələn tədbirlərin gücləndirilməsi.

8. İşğaldan azad edilmiş regionların bərpasında KOB-ların yeni maliyyələşmə mexanizmlərinin rolunun təkmilləşdirilməsi

Kiçik və orta biznes subyektlərinin ölkənin iqtisadi inkişafındakı rolundan əlavə işğaldan azad edilmiş ərazilərin bərpasında da müstəsna potensialı vardır. Belə ki, 30 ilə yaxın müddətdə işğal altında qalmış ərazilərə əhalinin qayıdışı təkcə yaşayış sahələrinin bərpası ilə deyil, eyni zamanda yeni iş yerlərinin yaradılması nəticəsində təmin edilə bilər. Dövlət tərəfindən evləri bərpa edilən vətəndaşların qayıdışının davamlılığını təmin etmək üçün onların məşğulluğu məsələsinin həll edilməsi zəruridir. Bu istiqamətdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda regional dövlət idarələrinin və böyük bizneslərin filiallarının yaradılması həyata keçirilsə də, həmin zonanı iqtisadi inkişaf faktoruna çevirmək üçün və əhalinin bütün təbəqələrinin məşğulluğunu təmin etmək üçün KOB-ların yaranmasına dəstək müsbət nəticələr göstərə bilər.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında düzgün kapital axını və texnoloji inkişaf siyasəti aparılacağı təqdirdə Solou Modelinə əsasən həmin zonaların ölkənin iqtisadiyyatında aparıcı regionlara çevriləcəyini, hətta iqtisadi inkişafda ciddi katalizator roluna malik olacağını deyə bilərik. Ölkədə texnoloji innovasiyaların inkişafı üçün startap mühitinin inkişafı vacibdir. Buna görə də işğaldan azad

edilmiş regionlarda KOB maliyyələşməsi zamanı startapların inkişafı da nəzərə alınmalıdır.

Regionun elmi-innovativ potensialının artırılması, texnoparkların yaradılması və fərdi investisiya imkanlarının şaxələndirilməsi Solou Modelində[19] qeyd edilən effektiv əmək dəyişəninin artmasına səbəb ola bilər. Burada startapların və KOB-ların maliyyələşmə imkanlarının artması işçi sayının artması ilə, elmi-texnoloji islahatlar isə texnologiya faktorunun artması ilə nəticələnir. Bu da işçi sayı və texnologiyanın hasilinə bərabər olan effektiv əməyi artırmış olur. Həmçinin azad edilmiş regionlarda infrastrukturun bərpası prosesinin ilkin mərhələsində təbii olaraq kapitalın da sürətli artımı müşahidə ediləcək ki, bu da Modelə əsasən ÜDM-də kəskin artıma yol açacaqdır. Kapitaldakı artım investisiyalar ilə düz mütənasib olduğu üçün xarici investisiyaların artması kapital artımı ilə nəticələnir. Lakin kapital artımının gələcəkdə davamlı olması üçün yerli bizneslərin dəstəklənməsi və onların yuxarıda qeyd edildiyi kimi rəqabət qabiliyyətinin artırılması vacibdir. Çünki xarici investisiyalar müəyyən müddətdə davam edə, sonradan onların payı azala və amortizasiyanın növbəti illərdə çoxalması müşahidə oluna bilər. Bu da xarici investisiyadan asılılıq şəraitində yığılmış kapitalın azalması və ÜDM artımının yavaşlanması ilə nəticələnə bilər. Bunun qarşısının alınması və azad edilmiş regionlarda bərpa proseslərinin sürətləndirilməsi üçün yerli startapların maliyyələşmə imkanlarının genişləndirilməsi vacibdir. Belə olan halda gələcəkdə xarici investisiyaları tədricən yerli investisiyalar əvəz edir və ÜDM artımının dayanıqlığı təmin edilmiş olur.

[19] Dykas, P. The Solow model of economic growth / P. Dykas, T. Tokarski, R. Wisła, – New York: Taylor & Francis Group, – 2023. – 248 p.

ƏSAS NƏTİCƏLƏR

Kiçik və orta sahibkarlıq subyektləri, o cümlədən startapların maliyyələşdirilməsi istiqamətində aparılan tədqiqat nəticəsində Azərbaycanda KOB-ların yeni maliyyələşmə mənbələrinin təkmilləşdirilməsi probleminin həllini fərdi investisiya, dövlət dəstəyi, İslam maliyyəsi və blokçeyn texnologiyası əsasında ümumiləşdirmək mümkündür. İlkin olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsində KOB-ların təşkilati-hüquqi formaları ilə bağlı müəyyən düzəlişlərin edilməsi zəruridir. Bu düzəlişlər onların vergi məsələlərinin həllində müsbət rol oynayacaqdır. Daha sonra kiçik və orta bizneslərin ÜDM-də payının artırılmasına diqqət yetirmək və dövlət inhisarının azaldılması istiqamətində addımların atılması Azərbaycan iqtisadiyyatının diversifikasiyasına səbəb ola bilər. Bu istiqamətdə maliyyə sektorundakı təmərküzləşmənin aradan qaldırılması və antiinhisar tədbirlərinin gücləndirilməsi vacibdir.

Sonrakı mərhələdə biznes subyektlərinin maliyyələşməsi üçün infrastrukturun inkişaf etdirilməsinə ehtiyac var. Buna ölkə ərazisində internet infrastrukturunun, nəqliyyat-logistika problemlərinin həlli və rəqəmsal xidmətlərin əlçatanlığı daxildir. Həmçinin, qeydiyyat prosesindəki bürokratiyanın minimallaşdırılması, xüsusən də startap şəhadətnaməsi verilməsi prosedurunun daha da sadələşdirilməsi biznes subyektlərinin vergi güzəştlərinə çıxış imkanı qazanmasına və sahibkarların sayında artıma səbəb ola bilər. Bu istiqamətdəki tədbirlərə biznes ekosisteminin inkişafı da daxildir. Elmi-tədqiqat və araşdırma nəticələrinin biznes layihələrinə tətbiq edilməsi, o cümlədən yeni elmi ixtiraların təşviq edilməsi məqsədilə dövlət büdcəsindən vəsaitlərin ayrılması ekosistemin sürətli şəkildə inkişafına gətirib çıxara bilər. Ekosistemin inkişafına korrupsiya ilə mübarizənin gücləndirilməsi və mülkiyyət hüquqlarının müdafiəsinin gücləndirilməsi də daxildir.

Tədqiqat nəticəsinə əsasən qeyd etmək lazımdır ki, Azərbaycanda KOB-ların maliyyələşdirilməsi üçün yuxarıda qeyd edilən islahatlardan əlavə alternativ maliyyələşmə üsullarından da geniş istifadəyə ehtiyac var. Burada başlıca rol özəl-dövlət müştərək fəaliyyəti əsasında qurulmuş və əsasən innovativ startaplara yatırım edən vençur fondların təsis edilməsi və fərdi investorların sayının artırılması istiqamətində

işlərin görülməsi daxildir. Xarici vençur investorların ölkəyə girişinin də asanlaşdırılması, həmçinin İsrail modeli olan və ordu-biznes qarşılıqlı fəaliyyəti əsasında fəaliyyət göstərən maliyyələşmə sisteminin qurulması da Azərbaycan üçün uyğun həll yolları hesab edilə bilər. Alternativ maliyyələşmə imkanlarına əlavə olaraq maliyyə alətlərinin müşayiəti ilə birgə İslam maliyyəsinin müəyyən ünsürlərini, o cümlədən İslam sığortası imkanlarının tətbiqi də nəzərdən keçirilə bilər. Lakin alternativ maliyyələşmə mənbələrinin inkişafı kapital bazarlarının inkişafı olmadan mümkün olmadığı üçün birjanın canlandırılması istiqamətində tədbirlərin görülməsi vacibdir. Bu istiqamətdə özəlləşdirmə prosesinə ehtiyac vardır.

Həmçinin tədqiqat nəticəsində blokçeyn əsaslı hesablaşmaların yüksək risk ehtiva etdiyi və Azərbaycandakı KOB-ların buna hazırlıqlı olmadığı müəyyən edilmişdir. Lakin gələcəkdə proseslərin sürətləndirilməsi və maliyyə imkanlarının genişləndirilməsi üçün ilkin koin təklifləri və rəqəmsal yollarla kraudfandinq imkanlarının tətbiq edilməsi Azərbaycanın KOB mühitinə öz müsbət təsirini göstərə bilər.

Azərbaycanda KOB-ların maliyyələşmə imkanlarının artırılmasında dövlət dəstəyinin müstəsna əhəmiyyəti vardır. Ölkə iqtisadiyyatında özəl sektorun böyük məbləğli və yüksək riskli investisiyalara tam hazır olmadığı və regionlarda biznes infrastrukturunun son zamanlarda inkişafını nəzərə alaraq dövlət vəsaiti hesabına kredit subsidiyalarına, kənd təsərrüfatının və yüngül sənayenin inkişafı ilə bağlı dəstək siyasətinə və yaşıl iqtisadiyyat layihələrinə davam edilməsi xüsusi əhəmiyyət kəsb edir. Hətta bu dəstəyin büdcə kəsrinin artırılması və ya Neft Fondunun vəsaitlərinin istifadəsi hesabına etmək mümkündür. Çünki gələcəkdə KOB-ların inkişafı vergi daxilolmalarının kəskin artmasına və qeyri-neft sektoru üzrə daxilolmaların üstünlük təşkil etməsinə gətirib çıxara bilər. Xüsusən də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa proseslərinə paralel olaraq KOB-ların maliyyələşmə imkanlarının yaxşılaşdırılması, bu bölgələrin Azərbaycan iqtisadiyyatında aparıcı rol oynamağına gətirib çıxara bilər. Bununla da gələcək dövrlərdə neft fondunun vəsaitlərinə daha çox qənaət etmək və iqtisadi dayanıqlığı daha da artırmaq mümkündür.

Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:

1. **A. Hasanov.** Importance of government support for startups. International Conference on Economics "Regional Development – Digital Economy", 12 December 2022, UNEC, Baku, pp. 182-185.

2. **Ə.Həsənov.** Startap maliyyələşməsinin əsasları. "Geostrategiya" beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnalı, 05(77), 2023, Bakı, s. 140-144.

3. **A.Hasanov.** Analysis of The Relationship Between Returns of Nasdaq Composite and Bitcoin. International Journal of Professional Business Review, vol.8, n.11, 2023, Miami, pp.1-13

4. **Ə.Həsənov.** Mikro, Kiçik və Orta Bizneslərin Dayanıqlı İqtisadi İnkişafda Rolu. Davamlı İnkişaf Strategiyası: Qlobal Trendlər, Milli Təcrübələr və Yeni Hədəflər II Beynəlxalq elmi konfransı, 27 dekabr 2023, Mingəçevir Dövlət Universiteti, Mingəçevir, s. 243-246.

5. **A.Hasanov.** Panel Analysis of the Relationship Between Main Socio-Economic Factors and New Business Density. International Conference on Modern Research in Management, Economics and Accounting, 14-16 March 2024, Berlin, pp. 14-26.

6. **Ə.Həsənov.** Kiçik və Orta Sahibkarlıq Subyektlərinin Maliyyələşmə Problemləri. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, cild 12, il 12, 2024, Bakı, s. 101-113.

7. **Ə.Həsənov.** Azərbaycanda Kiçik və Orta Bizneslərin Maliyyələşməsində İnnovasiyaların Tətbiqi. "Geostrategiya" beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnalı, 04(82), 2024, Bakı, s. 209-212.

8. **A.Alakbarov, A. Hasanov.** Leading Practices in MSME Financing: A Systematic Review. Futurity Economics and Law, vol. 4, n. 3, 2024, Lodz, pp. 194-213.

9. **Ə.Həsənov.** Azərbaycanda Kiçik və Orta Sahibkarlıq Subyektlərinin Maliyyələşmə Vəziyyəti. Elmi Araşdırmalar XX Beynəlxalq Elmi Konfransı, Azərbaycan Elm Mərkəzi, 7 sentyabr 2024, Bakı, s. 46-49.

10. **Ə.Həsənov.** Kiçik və orta bizneslərin maliyyələşmə mexanizmlərindəki problemlər və onların həlli yolları. "Dayanıqlı inkişaf" multidisiplinar elmi jurnalı, cild 4, n. 2, 2024, Mingəçevir, s. 32-36.

Dissertasiyanın müdafiəsi “11” noyabr 2026-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 09 oktyabr 2026-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.09.2026
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (40629 işarə).
Tiraj 100.

"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809